UOT 94

İSRAİL ƏMİRLİ
Bakı Dövlət Universiteti,
Asiya və Afrika ölkələri tarixi kafedrasının müəllimi
amirovisrail04@gmail.com

ÇİNİN İQTİSADİ NÜFUZ DAİRƏSİ SİYASƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/154-157

Çin iqtisadi baxımdam dünyanın güc mərkəzlərindən biridir. Çin dövlət kapitalizmini həyata keçirir. Əhalinin sayının çox olması, iqtisadi məşğulluğun yüksək səviyyədə olmasına dəlalət edən faktorlardandır. Demək olar ki, bu amil ölkənin iqtisadi siyasətinə də təsir edən amillərdəndir. Ona görə də, Çin iqtisadiyyatı daim böyüyən iqtisadiyyatdır. Bunun nəticəsində Çin dünyanın əsas istehsalçılarından birinə çevrilmişdir. Bu amil Çinin öz iqtisadi nüfuz dairəsini genişləndirməsinə də təkan verir.

Açar sözlər: Çin iqtisadiyyatı, dünya dövlətləri, iqtisadi nüfuz dairəsi, sənaye məhsulları.

Giriş. XX əsrin 90-cı illərin əvvəlində Sosializm sistemi süqut etdi. Lakin, Çin öz siyasi quruluşunu dəyişmədi. Çin bununla bərabər dövlət kapitalizmini inkişaf etdirməyə başladı. XX əsrin 90-cı illəri sənaye məhsullarının inkişafında yeni mərhələ oldu. İnsanların həyatına yeni sənaye məhsulları daxil oldu. Sənaye məhsulları bolluğu yarandı. Çin bu dövrdən başlayaraq fəal iqtisadi siyasət yeritməyə başladı. Bunun nəticəsində qısa müddətdə dünya ölkələri içərisində ön sıralarda mövqe tutdu. Çinin yeritdiyi fəal iqtisadi siyasət nəticəsində nüfuz dairəsi genişlənməyə başladı.

Çinin iqtisadi nüfuz dairəsi siyasəti. Çin Asiyanın ən böyük siyasi, iqtisadi və mədəni cəhətdən inkişaf etmiş dövlətlərindən biridir. Demək olar ki, Asiyanın və Avropanın bir sıra ölkələri Çinin iqtisadi nüfuz dairəsinə daxildirlər. Bu amil Çinin zamanla siyasi gücə çevrilməsinə təkan verən əsas amildir.

Çində istehsal olunan məhsullar bazarlama nöqteyi nəzərindən daha ucuzdur. Bu amil Çin məhsullarının bütün dünyada satılmasına təkan verir. Demək olar ki, Çin iqtisadiyyatı trilyon dollarla məhsul dövriyyəsinə malikdir.

Bu amil bəzi dövlətlərin Çinin iqtisadi nüfuz dairəsinə düşməsinə səbəb olur. Buraya əsasən yüngül sənayedən tutmuş, ağır sənaye məhsulları daxildir. Demək olar ki, bir sıra Cənub Şərqi Asiya ölkələri vardır ki, onlar ölkəyə idxal olunan məhsulların böyük əksəriyyətini Çindən alırlar. Buraya əsasən elektronika məhsulları, toxuculuq məhsulları, ağac məhsulları, dəmir məhsulları və sair aiddir. Bu amil həmin ölkələrin Çinin iqtisadi nüfuz dairəsinə düşməsinə səbəb olur.

Burada əsas amil ondan ibarətdir ki, həmin ölkələrin idxal məhsullarını çeşidləndirmə kimi bir imkanları yoxdur. Yəni Çin məhsulları rəqabətə çox davamlı olduğuna görə, həmin dövlətlərin bazarlarını çeşidləndirmə kimi bir niyyətləri yoxdur. Başqa cür qeyd etsək Çin bazarı ilə rəqabət apara biləcək başqa bir bazar da yoxdur.

Avropa ölkələri də Çin dövlətinin istehsal etdiyi məhsullardan istehsal edir. Lakin qiymətlərin baha olması nöqteyi nəzərindən, Çin bazarı ilə rəqabətə davam gətirə bilmir.

Çin şirkətlərinin genişləndiyi başqa bir bazar isə MDB dövlətlərinin bazarlarıdır. Bu ölkələr də Çinin iqtisadi nüfuz dairəsinə daxildirlər. Belə ki, bu dövlətlərin yeni müstəqillik qazanması, bununla yanaşı istehsal münasibətlərini hələ ki, yetərli səviyyədə qura bilməmələri, bu ölkələrin Çinin iqtisadi nüfuz dairəsinə düşməsinə səbəb olmuşdur. Demək olar ki, bu ölkələr də idxal olunan məhsulların böyük əksəriyyətini Çindən idxal edirlər. Bu amil istəmədən həmin dövlətlərin Çinin iqtisadi nüfuz dairəsinə düşməsinə səbəb olur.

Çin hökümətinin demək olar ki, MDB ölkələrində siyasi maraqları yoxdur. Çin dövlətinin əsas maraqları iqtisadi maraqlardır. Burada bir məsələni də qeyd etmək lazımdır ki, tarixşünaslıqda belə bir yanlış məsələ qoyulmuşdur ki, "İpək yolu" adlı ticarət yolu Çindən başlayır. Burada göstərilir ki, "İpək yolu" Çindən başlayır və Avropaya qədər uzanır. Lakin "İpək yolu" üzərində yerləşən bütün

dövlətlər bu yoldan istifadə etmişlər. Burada da əsas istehsal olunan məhsulların Çindən ixracı yox, bu yol üzərində yerləşən bütün dövlətlərin başlanğıc nöqtəsi olması əsas götürülməlidir.

Çində dövlət kapitalizmidir. Buna görə Çində istehsal olunan bütün məhsullar bu ölkə tərəfindən istehsal olunur. Lakin Çin dövləti ölkəsinin Sosialist olduğunu iddia etməkdədir.

Çində başqa bir amil ucuz işçi qüvvəsinin olmasıdır. Belə ki. Çin dövlətində həm torpaqlar ucuzdur, həm də işçi qüvvəsi ucuzdur. Bu amil istehsal olunan məhsulların daha ucuz başa gəlməsinə səbəb olur. Ona görə də bir sıra şirkətlər Çinin bu üstünlüklərindən istifadə edərək, öz firmalarını Çində açırlar. Çində istehsal edirlər və başqa ölkələrdə satırlar. Bu amil Çin iqtisadiyyatının böyüməsinə təkan verən cəhətlərdən biridir.

Çinin məhsullarını ixrac etdiyi ərazilərdən biri də Avropadır. Avropa ölkələri də hazırda istehsalçı qismində çıxış edən ölkələrdəndir. Ancaq Avropanın istehsal məhsulları Çinlə rəqabətə davam gətirə bilmir. Bununla bərabər Avropanın konkret bir ölkəsi yoxdur ki, istehsalçı kimi, bütün məhsulları istehsal edən ölkə kimi təmərgüzləşsin. Bu amil də əksər dövlətlərin şirkətlərinin Çin məhsullarına yönəlməsinə təkan verən amillərdəndir. Demək olar ki, Çində bütün məhsullar istehsal olunur. Digər bir amil isə Avropa məhsullarının baha olmasıdır. Bu da alım gücünün zəifləməsinə səbəb olan cəhətlərdəndir. Nəticədə Çin zamanla Avrasiya materikində əksər sənaye məhsullarının istehsal olunduğu yeganə dövlətə çevrilməkdədir.

XXI əsrin əvvəllərində həm də Çin dövləti bunun qarşısını almaq üçün müəyyən addımlar atmağa başlamışdır. Demək olar ki, Avropada istehsal olunan məhsulların eynisi Çində istehsal olunmağa başlanırdı. Bu yalançı rəqabət nəticəsində Avropada istehsal olunan məhsulların bazarlanmasında müəyyən çətinliklər yaranırdı. Çin məhsulları keyfiyyət baxımından aşağı olsa da alıcıları olurdu. Lakin zamanla Çin öz milli brendlərini yaratmağa başlamışdır. Bu məhsullar rəqabətə davamlı olan məhsullar olmuşdur. Buraya əsasən sənaye məhsullarını aid etmək olar.

Ona görə bəzi dövlətlər müəyyən məhsulların idxalını məhz Çindən etməkdədirlər.

Çin demək olar ki, xammal satmır. Çin hazırlanmış sənaye məhsullarını satır. Ona görə də bəzi dövlətlərin şirkətləri Çin firmaları ilə əməkdaşlıq quraraq öz ölkələrində bu məhsulların istehsalını və satışını qurmaqdadırlar. Ona görə belə demək olar ki, Çin dövlətinin iqtisadiyyatı daim böyüyən iqtisadiyyat hesab oluna bilər.

Ona görə də demək olar ki, əksər Avropa dövlətləri Çinlə ticarət partnyorluğuna malikdirlər.

Lakini konkret olaraq Avropa dövlətləri Çinin iqtisadi nüfuz dairəsinə daxil deyillər.

Çinin iqtisadi nüfuz dairəsinə daxil olan ərazilərdən biridə Afrikadır. Çinin bir okean ölkəsi olması onun bu sahədə böyük imkanlara malik olmasına səbəb olan amillərdəndir. Demək olar ki, Çin öz məhsullarını gəmilər vasitəsilə Afrika ölkələrində satmaqdadır. Buna səbəb olan amillər Çin məhsullarının ucuz olmasıdır. Demək olar Afrikada mövcud olan ölkələrin alım gücünün zəif olması bu bölgələrdə Çin məhsullarının satılmasına şərait yaradır.

Bununla yanaşı Çin şirkətləri Afrika ölkələrində müxtəlif layihələri həyata keçirirlər. Burada bir məsələni qeyd etmək lazımdır ki, Afrika dövlətləri ilə yanaşı, Çin şirkətləri həm Asiyada, həm də Avropada müxtəlif sənaye tipli layihələr həyata keçirməkdədirlər. Buna da səbəb olan cəhət həm Çin məhsullarının ucuz olması, həm də bacarıqlı və ucuz işçi qüvvəsinin olması buna səbəb amillərdəndir. Belə ki, Çin hazırda Afrika ölkələrini həm də mütəxəsislərlə təmin edən ölkədir. Çin mütəxəsisləri Afrikada həyata keçirilən layihələri məhz özləri həyata keçirirlər.

Kübra Yılmaz öz məqaləsində bellə yazır, Çin inkişaf etməkdə olan ölkələrlə işbirliyi qurmağı və beləcə Qərb güclərinin tək tərəfli siyasətinə qarşı durmağı hədəfləməkdədir. Afrika ölkələrinin çoxu Çinin bu siyasətini dəstəkləməkdədir. Bundan istifadə edən Çin dövləti Afrika Birliyi, Şərqi Afrika ittifaqı, Qərbi Afrika dövlətləri İqtisadi birliyi, Afrika İnkişaf Bankı kimi təşkilatlarla iş birliyi qurmuşdur (1). Məhz Çin iqtisadiyyatının bu cür artım tempi ilə inkişaf etməsi, onun böyük dövlətlət olan Amerika Birləşmiş Ştatları ilə rəqabət vəziyyətinə düşməsinə səbəb olmaqdadır.

ABŞ Çin iqtisadiyyatının bu inkişaf amilini bilərək, onun zamanla siyasi gücə çevrilməsindən narahat olmaqdadır. Ona görə də bəzi Çin şirkətləri ABŞ-ın sanksiyalarına məruz qalmaqdadır. Çünki, iqtisadi güc özü ilə birlikdə siyasi gücü də gətirməkdədir. Bu siyasi güc amili isə Asiya qitəsində ola bilər. Lakin, Asiyada inkişaf etmiş Yaponiya və Cənubi Koreya dövlətləri kimi ölkələr var. Onlar

Çinin siyasi güc olmasından çəkinmirlər. Bu ölkələr Çinin mədəni nüfuz dairəsinə düşməsindən çəkinirlər və bu sahədə fəaliyyətlərini qururlar.

Zeyneb Çalışkan öz məqaləsində bildirir ki, Çin və ABŞ arasında münasibətlərin normallaşması bütün ölkələrin xeyrinədir. Hər iki dövlət də bir hərbi qarşıdurmanı azaltmaq niyyətindədirlər. Hər iki tərəf də Asiya-Sakit okean bölgəsində hegemoniya arayışında olmayacaq və bölgədə hegemoniya arayışında ola biləcək bir dövlət ya da dövlətləri koalisyonun bu məqsədlə fəaliyyətlərinə birgə qarşı çıxacaqlar (2).

Buraya Tayvan məsələsi ilə əlaqədar baş verən qarşıdurmanı aid etmək olar ki, bu amil də ABŞ və Çin dövlətlərinin qarşıdurması şəklində əks oluna bilər. M.Eyüboğlu özünün əsərində bildirir ki, ABŞ Çinin Uzaq Şərq siyasətindən narazı olaraq prezident Obamanın dövründən başlayaraq hər il, Asiya Sakit okeanda hərbi gücünü artırmaqdadır (3).

Lakin bir məsələ aydındır ki, Çinin iqtisadi nüfuz dairəsi, daim genişlənməkdədir və özüylə birlikdə siyasi gücü gətirməkədə davam etməkdədir.

Nəticə. Çin dövləti Avrasiya materikinin ən güclü iqtisadi mərkəzlərindən biridir. Demək olar ki, Çin hər şey istehsal edir. Bu məhsulların içərisində sənaye məhsulları üstünlük təşkil edir. Çinin müxtəlif şəhərləri bir sıra eyni adlı məhsulların istehsalına və çeşidlərinə görə təmərgüzləşibdir.

Çinin bütün məhsulları istehsal etməsi, bununla yanaşı bazarlaması, bir çox ərazilərin, Cənub Şərqi Asiyanın, MDB dövlətlərinin, Afrika dövlətlərinin, bir sıra Avropa ölkələrinin Çinin iqtisadi nüfuz dairəsinə daxil olmasına səbəb olmuşdur. Demək olar ki, bu ölkələr məhsulların ucuz olması baxımından Çindən hər şey idxal edirlər. Buna səbəb olan amillər məhsulların ucuz və keyfiyyətli olmaları, və s amillər təsir edir. Ona görə də bu bölgələr Çinin nüfuz dairəsinə daxil olan ərazilərdir.

ƏDƏBİYYAT

1. Kübra Yılmaz. Çinin Afrika parametrləri // Africania, Cilt 1, Sayı 1, 2021, s.87-102. - https://asosindex.com.tr/index.jsp?modul=articles-page&journal-id=2775&article-id=551163 [15.04.2024].
2. Zeynep Çalışkan. Çin'in ekonomik-politik stratejisi: tarihsel bir bakış // İNSAMER, 25.02.2019, 12 s. - https://www.insamer.com/tr/uploads/pdf/analiz-cin-in-ekonomi-politik-stratejisi-tarihsel-bir-bakis.pdf [12.04.2024].
3. Muzaffer Furkan Eyüboğlu. Çin'in Dış Politikası Üzerine Kısa Bir Analiz. 10 s. / Sakarya Üniversitesi. - https://www.academia.edu/9909662/%C3%87in_D%C4%B1%C5%9F_Politikas%C4%B1_%C3%9Czerine_K%C4%B1sa_Bir_Analiz [10.04.2024].

ИСРАИЛ АМИРЛИ
Преподаватель Бакинского государственного университета

ПОЛИТИКА ЭКОНОМИЧЕСКОГО ВЛИЯНИЯ КИТАЯ

В начале 90-х годов 20 века система социализма рухнула. Однако Китай не изменил свою политическую структуру. В то же время Китай начал развивать государственный капитализм. 90-е годы 20 века стали новым этапом в развитии промышленной продукции. Новые промышленные товары вошли в жизнь людей. Было изобилие промышленной продукции. Начиная с этого периода Китай начал проводить активную экономическую политику. В результате за короткий период времени она заняла лидирующие позиции среди стран мира. В результате активной экономической политики Китая сфера влияния стала расширяться.

Ключевые слова: китайская экономика, мировые государства, экономическая сфера влияния, промышленная продукция.

ISRAIL AMİRLİ
Lecturer of Baku State University

CHINA'S POLICY OF ECONOMIC INFLUENCE

At the beginning of the 90s of the 20th century, the Socialism system collapsed. However, China did not change its political structure. At the same time, China began to develop state capitalism. The 90s of the 20th century was a new stage in the development of industrial products. New industrial products entered people's lives. There was an abundance of industrial products. China began to implement an active economic policy starting from this period. As a result, in a short period of time, it took a leading position among the countries of the world. As a result of China's active economic policy, the sphere of influence began to expand.

Keywords: Chinese economy, world states, economic sphere of influence, industrial products.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 may 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. Məmmədağa Baxışov.